2023.- 7-13 fevral.- S.14.

Türküstan



# ... Burdakı bütün bayramlar

geni dəyişmiş pasxa.
Milyon cizgidən yığılır -
üzün özü də
maska.

Girən düşür eyni rəngə,
bir ağızdan
çıxır xor.
Yazılır ağ tərəfi də -
boz ölkə qara yumor.

Əksik gəlir sözləşdikcə,
yazanda itir hislər.
Saxlayıb,
adamlıq gəzir
üstümüzdə polislər.

Hamı olmayanı geyib,
olduğunu soyunur.
Soyunub,
öz suçlarının
növbəsində yuyunur.

Söndürülür hər kəs fərqli,
tarix dolmuş külqabı.
Eşiyə çıxmaq mümkünsüz,
içə açılır qapı.

... Bu adamda da
özü yox,
ayrısı ömür sürür.
Əl ağacını qovan kor
görmədiyini görür.

## Əsgər mesajı...

Vaxt tapıb
bitirmədiyin
çox asanca bir işəm.
Qəfildən dartılar qapı,
açarsan ki,
gəlmişəm.

Keçib güllədən,
ortanı
yüyürmüşəm qıraqla.
Soldan vurulmuşam, yerə
çatıram sağ ayaqla.

Görərsən,
bir ayaq - əsa,
əskikəm yerişimdən.
Yıxılıb düşmüş tərəfim
dayanıb girişində.

Qayıtmışam,
tək ayaqla
bu əsanı ötməyə.
Hər axşam
sənin ifanda
özümü eşitməyə...

**Mahir Mehdi**